Tarix və onun problemləri, №3 2009

**SABİR MƏMMƏDOV**
*tarix elmləri namizədi, dosent*

# KİV-İN İNKİŞAFI SAHƏSİNDƏ BEYNƏLXALQ ÖHDƏLİKLƏR

İnformasiya insan üçün həyatəhəmiyyətli meyardır. Çünki bilgi hər bir kəsin həyat rifahının yüksəlməsində əsas amillərindən birinə çevrilib. İnformasiyaya ümumi giriş və məlumatların açıqlığı konsepsiyası sadəcə olaraq bir bəyanat kimi səslənmir, artıq o demokratiyanın ən vacib sütunlarından birinə çevrilir. Bu gün bir çox ölkələrdə informasiyaya giriş azadlığının məhdudlaşdırılması avtoritarizmə aparan meyl kimi qiymətləndirilir.

İfadə azadlığı hüququ hər bir kəsin öz fikirlərini və düşüncələrini açıq şəkildə ifadə etməyi nəzərdə tutur. Bəllidir ki, bu dəyərə hər yerdə hörmətlə yanaşılmalıdır və ona rəayyət edilməlidir. Çünki demokratiyanın bərqərar olunmasında və ölkənin siyasi həyatında ictimayyətin iştirakının təmin edilməsində həlledici rolu məhz bu hüquq oynayır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, fikri ifadə etmək sərbəstliyini bəzən ifrat dərəcəyə çatdırırlar. Elə şərait yaranır ki, başqa insanların hüquqlarının qorunması zərurəti ortaya çıxır və məhdudiyyətlər mexanizminin işə salınması vacib sayılır. Belə hallarda ifadə azadlığı üzərinə qoyulan bəzi məhdudiyyətlər qaçılmaz və haqlı hesab olunur. Fikri ifadə etməyin ifrar formasını nümaiş etmək üçün «nifrət nitqlərini» göstərmək olar. „Nifrət nitqlərindən" istifadə olunması bir sıra ölkələrdə qadağan edilib.

Ayrı-ayrı insan qrupları eyni məsələ üzrə müxtəlif düşüncəyə sahib ola bilərlər. Bu müxtəliflik qrupların nümayəndələri arasında dözümsüzlük və bəzən nifrət hissi yaradır. Əgər mətbuat, radio və televiziya bu prosesdə iştirak edirsə və hakimiyyət orqanları bunu təşviq edirlərsə əlbəttə ki, cəmiyyətdə böyük gərginlik yaranır və buna heç cür haqq qazandırmaq olmaz. «Nifrət nitqlərinin» hüquqi bazasını silmək məqsədilə hətta bir sıra ölkələrdə xüsusi qanunlar da qəbul olunub.

«Nifrət nitqlərinin» söylənilməsi ilə yanaşı kütləvi informasiya vasitələrini bəzən başqa qeyri-insanı məqsədlər, o cümlədən cəmiyyətdə genosid və irqi ayrıseçkilik meyllərini gücləndirməsi üçün istifadə edirlər. 1994-cü ildə Ruandada Libre des Milles Collins radio-televiziya kompaniyasının genosidə bəstək fəaliyyəti hamının diqqətini cəlb etmişdi və buna etiraz olaraq dünyanın müxtəlif ölkələrində jurnalistlər sistematik olaraq öz etiraz səslərini ucaltmışlar.

İfadə azadlığı hüququna rəayyət edilməsi ilə insan haqqları və azadlıqlarının təmin edilməsi arasında çox incə sədd var. Əksər hallarda özündə qadağa daşıyan qanunlar təsirli olmur. Hətta «nifrət nitqləri» bəzən alternativ ifadə forması kimi qələmə verilir və bu sahədəki diskussiya nəticəsiz qalır. Heç şübhə yoxdur ki, ifrat mahiyyətli «nifrət nitqləri» qadağan olunmalı və dövlət səviyyəsində istifadə edilməməlidir. Bununla yanaşı kütləvi informasiya vasitələrində plüralizmin inkişafına təkan verilməli, müxtəlif mövqelərin işıqlandırılmasına və hətta bir-birinə əks olan nöqteyi-nəzərin efirdə və mətbuatda verilməsinə nail olunmalıdır.

Bu problemin həllinə dair BMT-nin 1948 ildə qəbul etdiyi İnsan haqları üzrə Ümumdünya Bəyannaməsində müəyyən yanaşma mövcuddur. Bəyannamənin 29 maddəsində deyilir: «1.Hər bir insanın toplum qarşısında məzifələri var, yalnız və yalnız bu vəzifələr çərçivəsində insan şəxsinin azad, tam qəlişməsi ola bilər... 3.İnsan öz haqlarını, azadlıqlarını gerçəkləşdirəndə yalnız beynəlxalq qanunun qoyduğu çərçivə ilə cızığa salına bilər. Bu məhdudiyyət isə yalnız başqalarının haqq və azadlıqlarını tanı-

maq, saymaq üçün qoyula bilər. Bu məhdudiyyət eyni zamanda əxlaqın, ictimai qayda-qanunun, demokratik toplumda hamı üçün rifahın təmin olunması uğrunda qoyula bilər».[1.s.98-99] Göründüyü kimi bu məhdudiyyətlər qanunla tənzimlənməlidir və başqa vətəndaşların haqlarının qorunmasına yönəlib.

Qeyd etmək lazımdır ki, Ümumdünya Bəyannaməsinin 19 maddəsində bəyan edilən özünüifadə azadlığı hüququ Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi başqa beynəlxalq-hüquqi sənədlərin ayrı-ayrı maddələrində bir qədər də genişləndirilib. Bu fikirlər ilk növbədə ayrıseçkiliyin qadağan edilməsi ilə bağlı olan sənədlərdə öz əksini tapıb. Hökumət orqanları kütləvi informasiya vasitələri müəssisələri arasında ayrıseçkiliyə yol verməməlidirlər. Dövlət tərəfindən KİV-ə ayrılan subsidiyalar hamısını əhatə etməli, vergi güzəştləri isə heç bir ayrıseçkilik olmadan bu sahədəki bütün təsisatlara şamil edilməlidir. Yəni dövlət və özəl KİV müəssisələrinə yanaşma eyni olmalıdır. İnformasiyaya giriş imkanları bərabər olaraq bütün informasiya vasitələrinə verilməlidir. Əks halda bir sıra hüquqlar kompleks şəkildə pozulmuş olacaq: həm informasiya vasitələrinin azadlıq hüququ, həm də ayrıseçkiliyin yolverməməsi qaydası.

İnformasiyanı ötümək və yaymaq azadlığı müxtəlif yollarla pozulmuş olar. Mətbuat azadlığı üçün belə çatışmazlıqlar özünü daha qabarıq göstərir.

Ən böyük təhlükə jurnalistlərə edilən təzyiqlərdən irəli gəlir. Bəzi hallarda qeyri-formal senzurada tətbiq edilir: ayrı-ayrı vəzifəli şəxslərin fəaliyyəti nəticəsində jurnalistlərə hədə-qorxu mahiyyətli telefon zəngləri edilir, fiziki təsir üsullarına əl atılır. Bütün bunların məqsədi arzuedilməyən məlumatların mətbuatda işıqlandırılmasının qarşısını almaqdır.

İctimai maraqı cavablandıran sərbəst informasiya axınının vacib məsələlərindən biri jurnalistlərin öz informasiya mənbələrini açıqlamamaq hüququdur. İnsan haqlarının qorunmasını özündə etiva edən bütün beynəlxalq və regional mexanizmlər jurnalistlərə öz informasiya mənbələrinin qapalı saxlanması hüququnu təsbit edir. Yalnız son dərəcə ehtiyac duyulduqda bu qaydadan istisnalar ola bilər: məhkəmədə cinayyətin araşdırılması və təqsirli bilinənin müdafiəsi zamanı. Üstəlik bu açıqlanma xüsusi məhkəmə sərəncamı əsasında verilməlidir. Məhkəmənin belə qərarı yalnız aşağıdakı şərtlər daxilində mövcud ola bilər: birincisi – hazırki məlumatı heç bir başqa mənbədən əldə etmək mümkün deyil, ikincisi – mənbənin açıqlanmasını tələb edən ictimai maraq həlledici dərəcədə mənbənin qapalı saxlanılmasından və nəticədə ifadə azadlığına dəyən ziyandan daha əhəmiyyətli olsun. Bəzi hallarda korrupsiyanı və qeyri-leqal hərəkətləri ifşa edən jurnalist araşdırmalarının və reportajların qarşısını almaq üçün şəxsi həyatın toxunulmamazlığı prinsipindən istifadə edirlər. Bu hüquqi prinsip insanların maraqlarına xidmət etdiyinə və sox əhəmiyyətli olduğuna baxmayaraq ictimai zərurət yarandıqda müəyyən istisnalar işə düşür. Çünki ictimai maraqlar şəxsi məsələləri ikinci plana keçirir.

Kütləvi informasiya vasitələri konfliktləri sərbəst işıqlandırmaq imkanına malik olmalıdırlar. İctimai diqqətin bu problemlərə cəlb edilməsi humanitar hüquq normalarına əməl olub-olmamasını açıq şəkildə göstərir, bu sahədə olan pozuntulara nəzarət sistemi yaradır, konflikt şəraitində insan haqlarına necə rəayət olunmasını ortaya qoyur. KİV nümayəndələrinə konflikt şəraiti ilə bağlı olan problemlərin işıqlandırılmasına qadağalar qoyulması informasiya və ifadə azadlığının ciddi pozulması kimi qəbul olunur. Belə hallarda məhdudiyyətlər yalnız təhlükəsizlik məsələlərlə əlaqədar ola bilər. Mətbuatın üzərində struktur xarakterli məhdudiyyətlər də mövcud ola bilər. Problemin bu yönümü kütləvi informasiya vasitələrinin həqiqətən müstəqil olub-olmaması və ya-

xud onların üzərində siyasi nəzarətin mövcudluğu ilə bağlıdır. Başqa sözlə KİV-in cəmiyyətdəki sosial quruluşu qiymətləndirici amilə çevrilir.

Bu vəziyyətdə məhdudiyyətlər mətbuat haqqında qanunların müxtəlif maddələri formasına düşə bilər. Qanunların mükəmməl olmaması üzündən dövlət kütləvi informasiya vasitələrinin fəaliyyətinə qarışa bilər və yaxud dərc olunan materialların məzmununa qeyri-qanunı müdaxilələr edə bilər. Mətbuat, radio və televiziyanın fəaliyyətini tənzimləyən orqanlar bütövlükdə və tam şəkildə hakimiyyətin nəzarətindən kənarda olmalıdır.

Müxtəlif mənbələrdən informasiya əldə etmək hüququ başqa üzulla da məhdudlaşdırıla bilər, yəni kütləvi informasiya vasitələrində inhisarçılıq yaratmaqla. İnformasiya yayımı üzərində dövlət inhisarçılığın mövcidluğu ictimai mənafeə xidmət etmir. Bununla belə qeyd olunmalıdır ki, bəzi kiçik bazarlarda dövlət inhisarında olan qəzet yeganə yerli informasiya mənbəyi ola bilər. İnhisarlaşma problemləri bütün incəlikləri ilə işlənib hazırlanmalıdır və nəticədə fikir müxtəlifliyini təmin etmək üçün kütləvi informasiya vasitələrinin fəaliyyətinə dövlət tərəfindən müdaxilə edilməsinə imkan verilməməlidir.

Söz azadlığı bir sıra başqa beynəlxalq hüquqi sənədlərlə də tənzimlənir. İnsan haqlarının qorunmasına yönəlmiş belə müqavilələr onları imzalayan ölkələr üçün mütləq sayılır. Bunların sırasında başlıca yeri Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt tutur Həmin Pakt İnsan Haqları üzrə Ümumdünya Bəyannaməsində təsbit edilmiş hüquqların inkişafını və qorunmasını təmin edən mötəbər və etibarlı sənəddir. Pakt Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında 16 dekabr 1966-cı ildə qəbul edilib və 23 mart 1976-cı ildə 35 ölkə tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minib. Hal-hazırda bu müqaviləyə dünyanın bütün kontinentlərindən olan 140-dan artıq ölkə qoşulub. Müqavilənin şərtlərinə görə sənədi imzalayan tərəf öz üzərinə öhdəlik götürür ki, hər bir şəxsin hüquq və azadlıqlarını hərtərəfli qoruyacaq və müdafiə edəcək. Bu şəxs ölkə vətəndaşı da ola bilər, həmin ərazidə olan əcnəbi də. Ölkə parlamenti tərəfindən qəbul olunan qanunlar hazırki Paktın maddələrinə uyqun olmalıdır.

Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 19-cu maddəsi «hər bir şəxsin maneəsiz olaraq öz düşüncəsinə sahib olmaq haqqı»nı təsbit edir. Həmin maddənin ikinci bəndində qeyd edildiyi kimi «hər bir insanın öz fikrini sərbəst ifadə etmək hüququ var; bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq hər cür informasiya və ideyaları axtarmaq, almaq, şifahi, yazılı,mətbuat, yaxud bədii ifadə formaları vasitəsilə, yaxud özü seçdiyi başqa üzullarla yaymaq azadlığı daxildir».[2.s.101] Bununla yanaşı Beynəlxalq Paktda vurğulanır ki, «göstərilən hüquqlardan istifadə olunması xüsusi vəzifələr qoyur və məsuliyyət tələb edir. Belə ki, bir sıra məhdudiyyətlərlə bağlı ola bilər. Lakin onlar qanunla müəyyənləşdirilməli və aşağıdakıların təmin edilməsi üçün zəruri olmalıdır:

a) başqalarının hüquqlarına və adına hörmət edilməsi üçün;

b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının, yaxud mənəviyyatının qorunması üçün».[3.]

Beynəlxalq Paktın 19-cu maddəsi bəzi dövlətlər arasında fikir ayrılığına səbəb oldu. Dövlətlərin bir qrupu informasiya azadlığına daha geniş imkanlar verilməsini istəyirdilər. Onlara qarşı çıxanlar isə öz vətəndaşlarını müharibə, faşızm, zorakılıq və s. təbliğatdan qorumağa məcbur olduqlarını irəli sürürdülər. Məhz buna görə müqavilənin 19-cu maddəsi belə geniş yazıldı. Bundan başqa Paktın 20-ci maddəsində xüsusi qeyd olundu ki, «hər cür müharibə təbliğatı qanunla qadağan edilməlidir;

ayrı-seçkiliyə, düşmənçiliyə, zorakılığa təhrik olan milli, irqi, yaxud dini nifrətin lehinə edilən hər hansı bir çıxış qanunla qadağan olunmalıdır».[4.]

Başqa sözlə, söz azadlığının gərçəkləşməsi formaları, o cümlədən KİV-in çap məhsulları, yalnız o vaxt məhdudiyyətlərə məruz qala bilər ki, həmin qadağalar qanunla əsaslandırılsın və demokratik cəmiyyətdə milli təhlükəsizlik, ərazi bütovlüyü, ictimai asaişin qorunması, kütləvi çaxnaşmanın və cinayətin qarşısının alınması, mənəviyyatın və sağlamlığın qorunması, başqa vətəndaşların hüquqlarının və nüfuzunun müdafiəsi, konfidensial şəkildə əldə edilən informasiyanın açıqlanmasının qarşısının alınması, məhkəmə orqanlarının tərəfsizliyinin təmin edilməsi və onların nüfuzunun qorunması tələb etsin. Üstəlik bu məhdudiyyətlər və məhsuliyyət yalnız sadə, aydın şərtlərlə və cərimə sanksiyaları ilə bağlı olmalıdır.

Praktiki fəaliyyətdən və beynəlxalq standartlardan çıxış edərək qeyd olunmalıdır ki, kütləvi informasiya vasitələrinə aid hər hansı bir materialın dərc edilməsinin dayandırılması, qadağan edilməsi və yaxud ləğvi heç vaxt tətbiq edilə bilməz. Ayrı-ayrı şəxslər tərəfindən söz və informasiya azadlığından sui-istifadə hallarının qarşısının alınması üçün cərimələr və cinayyət məcəlləsinin müvafiq maddələrinin tətbiq edilməsi istənilən qanuni məqsədlərə çatmaq üçün kifayət edir.

Nəzərdə tutulan məhdudiyyətlər Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 20 maddəsində «hər cür müharibə təbliğatı, ayrı-seçkiliyə, düşmənçiliyə, zorakılığa təhrik edən milli, irqi, yaxud dini nifrətin lehinə edilən hər hansı bir çıxış» qanunla qadağan olunmaqla bir qədər də dəqiqləşdirilib. Nəzərə alsaq ki, ayrı-seçkiliyə, ədavətə və zorakılığa təhrik etmək birgə götürülür onda Beynəlxalq Paktın 19-cu maddəsindəki qadağaların ümumi sayı on üçdən artıq olmadığı aydın olur. Məhdudiyyətlərin açıq və bəlli şəraitlə əlaqədar olması ilə yanaşı Paktda elə çıxarışlar var ki, onlar dövlətə öz üzərinə götürdüyü öhdəliklərdən kənara çıxmağa imkan yaradır: ilk növbədə ölkədə rəsmi fövqəladə vəziyyətin elan olunduğu və millətin mövcudluğu təhlükə altında olduğu dövrdə. Hətta belə vəziyyətdə də lazımi prosedur qaydalara əməl olunmalıdır. Xüsusi qeyd olunmalıdır ki, bütün bu məhdudiyyətlər jurnalist peşəsinin keyfiyyətini aşağı salmamalıdır.

Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın göstərdiyi məhsuliyyət dünya birliyi tərəfindən qəbul olunmuş prinsiplər üzrə həyata keçirilir. Söz azadlığından sui istifadəyə görə məsuliyyət o vaxt yarana bilər ki, birincisi: bu sərbəstliyin həyata keçməsi nəticəsində zorakılıq təhlükəsi yaransın, ikincisi: ictimai maraqlara və mənəvi dəyərlərə ciddi ziyan dəymiş olsun, üçüncüsü: vətəndaşların qeyri-mülki hüquqları pozulmuş olsun, yəni onların şəxsiyyəti və işğuzar nüfuzuna xələl gəlmiş olsun. Beynəlxalq təcrübədən məlumdur ki, anonim olmayan informasiya mənbəyinə istinad etmək kütləvi informasiya vasitələrini məsuliyyətdən azad edir. Əgər yayımlanan məlumat həqiqətə uyğun deyilsə və yaxud şəxsiyyəti əsassız olaraq ləkələyirsə onda kütləvi informasiya vasitəsi təkzib verməlidir. Çox vacibdir ki, cəmiyyətin maksimum informasiya almaq və bilği əldə etmək hüququ ilə «yanlış» məlumatlara görə məhsuliyyət daşımaq arasında ağlabatan tarazlıq gözlənilsin.

Bu prinsip BMT-nin insan hüquqları üzrə Komitəsi tərəfindən «Nyu-York Tayms» Sallivana qarşı» işlə əlaqədar çıxardığı qərarda çox yaxşı əks olunub. Komitə qeyd edirdi ki, müəyyən ictimai xadimlərin davranışı ilə bağlı faktların yanlış işıqlandırılmasına görə mətbuat tənbeh edilməli deyil. Dəymiş ziyanın ödənilməsi tələbi mətbuatda qorxu və çəkinmək şəraitinin yaranmasına gətirib çıxarar. Mətbuata vicdanlı səhv üçün sağlam, həyatı məkan yaradılmalıdır.

Beynəlxalq hüquq sərbəst informasiya axını prosesinə dövlətin müdaxiləsini nəinki qadağan edir, hətta bir qədər irəli gedib onun üzərinə öhdəlik qoyur ki, bu həyatəhəmiyyətli hüquqların qorunması və onlara rəayyət edilməsi üçün bir sıra müsbət xarakterli addımlar atılsın. Əgər məlum olsa ki, jurnalist və yaxud mətbu orqan Beynəlxalq Paktın 19-cu maddəsinin mahiyyəti ilə uzlaşan qanunu pozub, onda haqlı sual ortaya çıxır, belə olan halda hansı cəza mexanizmi tətbiq olunmalıdır. Cəza qanun pozultusunun ağırlığı ilə tam uyqunluq təşkil etməlidir, üstəlik informasiya vasitələrinin sərbəstliyinə dolayısı ilə də basqılara yol açılmamalıdır. Belə basqınlardan biri cəzaçəkmə müəssələrində saxlanmaq təhlükəsi ilə bağlıdır. Özü özlüyündə cinayyət məcəlləsində və yaxud mətbuat haqqında qanunlarda jurnalistlərin cəzaçəkmə müəssəsinə salınmaq təhlükəsini ifadə edən maddənin olması bəlkə də onların bəzilərini kəskin xarakterli yazılardan çəkindirir. Belə qanunlar ya ləqv olunmalı, yaxud onlara düzəliş edilməlidir. Analoji formada: əgər cəza vasitəsi kimi cərimə seçilibsə onda o həddən artıq yüksək olmalı deyil. Çünki, başqaları da şirnikib bu yola əl ata bilər.

Əgər hüquqi çıxarışlar haqları pozulmuş vətəndaşlara lazımi müdafiə vasitələri və imkanları vermirsə, onların heç bir əhəmiyyəti olmur. Hüquqları pozulmuş informasiya vasitələrinin əməkdaşları, təşkilatlar, onların hüquqşünasları müvafiq formada hüquq pozuntuları ilə mübarizə aparan qurumlara müraciət etməlidirlər. İlk növbədə onlar milli qanunvericiliyə istinad etməklə pozulmuş hüquqlarını bərpa etməyə çalışmalıdırlar. Bununla yanaşı onlar müxtəlif beynəlxalq mexanizmlərin imkanlarından da yararlana bilərlər. Bu qurumlar zərərçəkənin özündən və yaxud onun adından şikayyət ərizəsini və yaxud «məlumatı» qəbul edir. Beynəlxalq səviyyədə baxsaq, hər hansı bir beynəlxalq təşkilata zərərçəkənin özündən və yaxud onun adından şikayətin daxil olması ilk-əvvəl ona gətirib çıxarar ki, hökumət lazimi formada şikayyət haqqında məlum edilər və üstəlik zərərçəkənin beynəlxalq diqqəti bu isə cəlb etmək istəyi nəzərə çatdırılar. Öz növbəsində şikayyət işinə geniş rezonans verilməsi gətirib ona çıxırar ki, beynəlxalq aləm şikayyətçinin iddiasını təmin etməyə, yaxud dartışılan hüquqi maddəyə və onun praktiki tətbiqinə düzəliş etməyə hökuməti məcbur edər.

Beynəlxalq diqqəti və potensial tənqidi qiymətləndirməmək olmaz. Xüsusən də əgər söhbət diplomatik təziqə həssas olan ölkədən gedirsə (əgər ölkə liderlik iddiasında çıxış edirsə, yaxud heç-hansı bir beynəlxalq təşkilatda lider yerini tutursa, xarici yardım almaq istəyirsə). İstənilən halda insan haqlarının təmin edilməsi sahəsində pis örnək hər bir ölkə üçün arzuolunmaz haldır. Baxmayaraq ki, belə qərarlar (milli məhkəmələrin qətnamələri müqaisədə) məcburi üsullarla həyata keçirilmir, hökumətlər müxtəlif səbəblər üzündən müsbət addımlar atmağa maraqlıdırlar və məcburdurlar.

## *QEYDLƏR*

1.Haqları necə qorumalı (Nə etməli, nə bilməli haqqında Yaddaş kitabı). Bakı, 1999, 176 s.
2. Mazanlı İ. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Bakı, 2005, 158 s.

**САБИР МАМЕДОВ**
***кандидат исторических наук, доцент***

**МЕЖДУНАРОДНЫЕ ОБЯЗАТЕЛЬСТВА В ОБЛАСТИ РАЗВИТИЯ СМИ**

В статье рассматриваются вопросы международного сотрудничества в области средств массовой информации. Автор анализирует деятельность Организации Обжединенных Наций в развитии свободы слова и печати во всем мире. Международным сообществом принято ряд важных документов, раскрывающих право личности на свободу самовыражения. Это право является основой для осуществления всех других прав человека.

**SABIR MAMMADOV**
***the bachelor of historical science, the senior lecturer***

**THE INTERNATIONAL OBLIGATIONS IN THE FIELD OF DEVELOPMENT OF MASS-MEDIA**

In article questions of the international cooperation in the field of mass media are considered. The author analyzes United Nations Organization activity in development of a freedom of speech and the press all over the world. It is accepted the international community a number of the important documents opening the right of the person on a freedom of expression. This right is a basis for realisation of all other human rights.

***Rəyçilər: f.e.n.H.Vəliyev, t.e.d.R.C.Süleymanov.***
***BDU Beynəlxalq jurnalistika kafedrasının 21 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07).***